# “Bakının qardaşı İzmir”

**Yazıçı-publisist, Əməkdar mədəniyyət işçisi Afət Sadıqoğlunun bir müddət əvvəl “Elm və təhsil” nəşriyyatı tərəfindən nəşr olunan “Bakının qardaşı İzmir” kitabı bir sıra maraqlı cəhətləri, xüsusilə mövzunun aktuallığı, müəllifin qələmə aldığı hadisələrin mahiyyətinə dərindən nüfuz etmə bacarığı ilə oxucuların diqqətini cəlb edib. Kitab səmimi və oxunaqlı bir dildə qələmə alınıb.**

İstedadlı qələm sahibi olan Afət Sadıqoğlu kitabın səhifələrində Azərbaycan və Türkiyə dövlətləri və xalqları arasında dostluq, həmrəylik əlaqələrinin genişlənməsi, qardaşlaşmış Bakı və İzmir şəhərlərinin tarixi, ictimai-siyasi, sosial-iqtisadi həyatı, inkişafı barədə qəlbindən dilinə axan düşüncələrini oxucularla səmimi şəkildə paylaşır, təhkiyə zamanı yeri, məqamı düşdükcə bu əlaqələrin əbədi olacağına dərin əminliyini ifadə edir.

Fikrimcə, müəllifin dəfələrlə İzmir şəhərində ezamiyyətdə olduğu zaman görüb-tanış olduğu tarixi məkanlar barədə qeydləri xüsusilə maraqlıdır. Belə ki, jurnalistin Egey Universitetinin rəhbərliyi ilə olan görüşləri, şəhərin turizm və sosial obyektlərinə, tarix və mədəniyyət obyektlərinə, İzmirin Əliağa adlanan rayonunda yerləşən “Star” neft emalı zavoduna və digər görməli yerlərə olan səfərlərindən təəssüratlar peşəkar jurnalist qələmindən çıxdığı üçün sanki göz önündə dolğun surətdə canlanır. Kitabın səhifələrində sadə izmirlilərin həm öz şəhərləri, həm də qardaş Azərbaycan, ölkəmizin paytaxtı Bakı barədə yer alan şirin söhbətlərinə diqqət kəsilməmək mümkün deyil.

Qeyd etmək lazımdır ki, Afət Sadıqoğlu (Məmmədov) dünyanın yaxın-uzaq ölkələrinə səyahət etməyi sevən, gördüklərini, müşahidə etdiklərini qələmə almaqdan zövq alan jurnalistlərdəndir. Çox sayda xarici ölkələrdə yaradıcılıq səfərlərində olub. Bir sıra ölkələrdə, o cümlədən, Türkiyə, Şimali Kipr, İran və Hindistanda keçirilən nüfuzlu beynəlxalq konfranslarda məruzə və çıxışlar edib.

Afət Sadıqoğlu “Ulu məskən”, “Naxçıvan qədim diyardır”, “Dəniz kimi məğrur insan”, “Mənim çiçəkli dünyam”, “Azərbaycan-Norveç əlaqələri”, “Tur Heyerdal Azərbaycanda”, “Beynəlxalq Mühəndislik Akademiyasının Azərbaycan bölməsi”, “Azərbaycan-Hindistan əlaqələri”, (Azərbaycan və ingilis dillərində), “Azərbaycan-Türkiyə: dostluq və qardaşlıq əlaqələri” və digər sənədli publisistik və bədii kitabların müəllifidir.

Xatırladaq ki, bir müddət əvvəl onun nəfis tərtibatda “Türk dünyasının Kıbrısı” adlı yeni kitabı işıq üzü görmüşdür. Burada yazıçı-publisistin Şimali Kiprə səfəri ilə bağlı yol qeydləri, ölkələrimiz arasında mədəni əlaqələrin tarixi, bugünü barədə maraqlı fikir və düşüncələri yer alıb.




Afət Sadıqoğlu artıq əlli ildən çoxdur ki, böyük həvəslə, yorulmadan yazıb-yaradır. Bu istedadlı qələm sahibinin fədakar yaradıcı əməyi dövlətimiz tərəfindən yetərincə qiymətləndirilib. O, 1981-ci ildə Azərbaycan SSR Ali soveti Rəyasət Heyətinin Fəxri Fərmanına, 1991-ci ildə Naxçıvan MR əməkdar mədəniyyət işçisi, 2010-cu ildə Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi fəxri adlarına layiq görülüb.

Afət Sadıqoğlu hesab edir ki, onun ömrünün ən böyük qazancı çox sayda sevimli oxucularının şəxsiyyətinə verdiyi dəyər, hər bir yeni yazısına, kitablarına bir an azalmayan diqqəti və marağıdır. Hörmətli həmkarımıza arzumuz budur ki, qoy bundan sonra da nə ömrü, nə də mövzuları tükənsin, əvvəlki şövq və həvəslə yazıb-yaratsın.

**M.HACIXANLI,**
**“Xalq qəzeti”**

Xalq qəzeti .- 2023.- 12 fevral .- S.7.